# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ

**Ticarət statistikası şöbəsi**

# XARİCİ TİCARƏT STATİSTİKASINA DAİR KEYFİYYƏT MƏRUZƏSİ

**20.04.2013**

Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
rafael@azstat.org, + 994 12 538 76 95

**Mündəricat**

1. Statistik prosesə və məhsullara giriş................................................ 3

2. Aktuallıq........................................................................................ 5

3. Dəqiqlik......................................................................................... 5

4. Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə.................... 6

5. Bərabər giriş və aydınlıq................................................................ 7

6. Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik................................. 9

7. Çıxış keyfiyyət komponentləri arasında seçim............................. 10

8. İstifadəçi tələbatlarının və qavramalarının qiymətləndirilməsi ..... 11

9. İqtisadi səmərəlilik və respondentlərə düşən yük.......................... 11

10. Məxfilik, şəffaflıq və təhlükəsizlik............................................. 12

11. Yekun.......................................................................................... 12

## 1.Statistik prosesə və məhsullara giriş

***Müşahidənin qısa təsviri***

Xarici ticarət statistikası sektoru xarici ticarət üzrə malların beynəlxalq ticarətinin uçotunu aparır və bir sıra vəzifələri həyata keçirir. Xarici iqtisadi fəaliyyətin inkişafına və genişlənməsinə yardım edir, dövlətin idxal və ixracına dair göstəricilərinin tam və dəqiq uçotunun aparılmasını, xarici ticarətin mal axınının əsas tendensiyalarının, dinamikasının, strukturunun ölkənin makroiqtisadi göstəriciləri ilə əlaqəli təhlilini aparır, dövlətin qanunverici və icraedici hakimiyyət orqanlarını xarici ticarət siyasəti və xarici ticarətin dövlət tənzimlənməsi sahəsində qərarlar qəbul etmək üçün statistik məlumatlarla təmin edir, dövlət büdcəsinə daxil olan gömrük ödəmələrinə nəzarət etmək üçün müvafiq orqanları statistik göstəricilərlə təmin edir, xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi sahəsində həyata keçirilən tarif və qeyri-tarif tədbirlərini təhlil etmək üçün müvafiq orqanları statistik məlumatlarla təmin edir, dövlətin tədiyyə balansının hazırlanması və milli hesablar sistemi çərçivəsində makroiqtisadi göstəricilərin proqnozlaşdırılması üçün ilkin göstəriciləri hazırlayır, dövlətin və onun xarici ticarət partnyorlarının xarici ticarət göstəricilərinin qarşılıqlı müqayisə edilməsini təmin edir. Xarici ticarət statistikasında xidmət idxalı və ixracı nəzərdə tutulmamışdır.

***Müşahidə vahidləri***

Ölkənin milli qanunvericiliyinə müvafiq olaraq idxal və ixracla məşğul olan bütün hüquqi və fiziki şəxslərə tərtib edilmiş yük gömrük bəyannamələrinin və digər gömrük sənədləşməsinin verilməsi ilə bəyan edilmiş bütün mallar statistik uçota cəlb olunur. Fiziki şəxslər tərəfindən və eləcə də poçtla və ya kuryer xidməti vasitəsilə göndərilən malların gömrük uçotunun dəyər və miqdar hədləri milli qanunvericiliklə müəyyən edilir.

***Əhatə***

Xarici ticarət statistikasında ölkənin iqtisadi ərazisinin hüdudlarına gətirilməsi və ya idxal edilməsi ilə onun material ehtiyatlarını artıran və hüdudlarından kənara göndərilməsi və ya ixracı ilə onun material ehtiyatlarını azaldan bütün malların uçotu aparılır. Tranzit mallar, ölkəyə müvəqqəti buraxılmış və ya ölkədən müvəqqəti göndərilmiş mallar (yəni daxili və ya xarici emal üçün nəzərdə tutulmuş və bir ildən çox müddətə icarəyə götürülmüş mallardan başqa), ölkənin material ehtiyatlarını

artırmadığından və ya azaltmadığından xarici ticarət üzrə gömrük statistikasına daxil edilmir. Bununla yanaşı, statistik müşahidələrin əhatə dairəsinin hüdudları dedikdə elə statistik hədd başa düşülür ki, keçirilən malları səciyyələndirən dəyər, netto-tonnaj və digər göstəricilər həmin həddən aşağı olduqda, dövlətin xarici ticarətinin gömrük statistikasında onların uçotu aparılmır.

***Əsas göstəricilər:***

- Xarici ticarət dövriyyəsi (ölkələr üzrə);
- İdxal və ixracın həcmi (ölkələr üzrə);
- Saldo;
- Xarici ticarət dövriyyəsinin fiziki həcm indeksi;
- Əməliyyat növləri üzrə idxal və ixracın həcmi;
- Ölkə qrupları üzrə ixrac və idxalın həcmi;
- İdxal və ixracın coğrafi qurluşu;
- Nəqliyyat növləri üzrə idxal və ixracın qurluşu;
- Humanitar yardım, texniki kömək və hədiyyələrin həcmi;
- Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə idxal və ixracın həcmi;
- İdxal və ixracın mal qrupları üzrə həcmi;
- Mühüm növ məhsulların idxal və ixracının həcmi;
- Mühüm növ məhsulların idxal və ixrac olunduğu ölkələr üzrə həcmi;
- İdxal və ixracın fiziki həcm indeksi;
- Ölkələr üzrə idxal və ixracın mallar üzrə həcmi;
- İdxal və ixracın gömrük məntəqələri üzrə həcmi.

Müəyyən müddətdə idxal edilmiş malların statistik dəyəri ilə ixrac edilmiş malların statistik dəyərinin cəmi həmin müddətdə xarici ticarət dövriyyəsini təşkil edir.

Müəyyən müddətdə ixrac edilmiş malların statistik dəyəri ilə idxal edilmiş malların statistik dəyərinin fərqi həmin müddətdə xarici ticarət saldosunu (balansını) təşkil edir.

***Əsas statistik məlumatlar:***

- Xarici ticarət əlaqələrinin dinamikası;
- Ölkələr üzrə xarici ticarət əlaqələri;
- Əməliyyat növləri üzrə xarici ticarət əlaqələri;
- Ölkə qrupları üzrə xarici ticarət əlaqələri;
- Xarici ticarət əlaqələrinin coğrafi quruluşu;

- Nəqliyyat növləri üzrə xarici ticarət əlaqələri;
- Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə xarici ticarət əlaqələri;
- Xarici ticarət əlaqələrinin əmtəə strukturu;
- Əsas malların idxalı və ixracı;
- Mühüm növ məhsulların idxalı və ixracı (ölkələr üzrə).

***Sorğu vərəqəsi***

Xarici ticarət statistikası üzrə əsas məlumat bazası kimi (ilkin məlumat) Dövlət Gömrük Komitəsinin (DGK) yük gömrük bəyannamələrində və digər gömrük sənədlərində olan məlumatlardan istifadə edilir. Malların uçotu, onların ölkənin iqtisadi ərazisi hüdudlarına gətirilməsi və ya hüdudlarından göndərilməsi anında aparılır. Belə ki, su, dəmiryol, avtomobil, hava nəqliyyatı ilə gətirilən və ya göndərilən malların uçotu yük gömrük bəyannaməsində göstərilmiş malın buraxılma tarixinə görə aparılır. Boru ilə nəql olunan (neft, neft məhsulları, su və s.) malların uçotu hesabat dövrünün axırında olan son nəqliyyat sənədinin tarixinə görə, təbii qazın və elektrik enerjisinin uçotu isə mal verilmiş ayın son gününün tarixinə görə aparılır. DGK tərəfindən işlənilmiş məlumat bazası hər ayın 15-25-i aralığında olmaqla Xarici ticarət statistikası sektoruna elektron daşıyıcılar vasitəsilə göndərilir.

## 2. Aktuallıq

Xarici ticarət statistikası üzrə məlumatlar BMT Statistika şöbəsinin "Beynəlxalq Əmtəə Ticarəti Statistikası" və MDB Statistika Komitəsinin "MDB-yə üzv ölkələrin xarici ticarət üzrə gömrük statistikasının aparılmasının Vahid metodologiyası" əsasında işlənib hazırlanır. Ölkənin xarici ticarətinin vəziyyətini səciyyələndirən ixrac və idxala dair ümumi göstəricilər, onların ölkələr və mal qrupları üzrə bölgüsü, ayrı-ayrı ölkələrin və ölkə qruplarının payı, malların natura və dəyər ifadəsində həcmi, "ölkə-mal" və "mal-ölkə" kəsiyində ixrac və idxala dair göstəriciləri əhatə edir. Bütün səviyyələrdə çıxış cədvəlləri alınaraq istifadəçilərin tələblərinin ödənilməsinə xidmət edir.

## 3. Dəqiqlik

Xarici ticarət uçotunun sistemi idxal və ixraca daxil edilən mallar axınının siyahısının təyin edilməsi ilə səciyyələndirilir. Bu statistikanın aparılmasının ümumi qəbul edilmiş

iki ticarət uçotu sistemi vardır: ümumi və xüsusi. Qiymətlərin vahid bazisə gətirilməsi üçün malların statistik dəyəri, gömrük bəyannaməsinin qəbul edildiyi günə ölkənin Mərkəzi bankı tərəfindən qoyulmuş kursa uyğun olaraq ABŞ dolları ilə təyin edilir. Malların statistik dəyəri ayrı-ayrı malların özünəməxsus qiymətləri ilə uçota alınır. Belə ki, qeyri-monetar qızıl, qiymətli metallar və daşlar, qiymətli metallardan kolleksiya sikkələri ixrac və idxalda onların kommersiya qiymətləri ilə uçota alınırlar. Dövriyyədə olmayan qiymətli kağızlar, pul nişanları və sikkələr, nominal qiymətində deyil, onların çapına və ştamplanmasına çəkilən xərclərə, kağızın və metalının qiymətinə görə hesablanır. Məlumat daşıyıcıları və proqram təminatı vasitələri kimi istifadə olunan mallar və ya kompüter proqramları yazılmış CD-ROM lazer diskləri məlumat daşıyıcılarının və məlumatın özünün dəyəri əsasında qiymətləndirilir. Emal üçün gətirilən (göndərilən) mallar, eləcə də emal məhsulları, onların emal prosesində əlavə edilmiş dəyəri ilə deyil, bütöv dəyəri ilə qiymətləndirilir. Bunlarla yanaşı, xarici ticarət statistikası üzrə məlumatların işlənməsi və qarşıya qoyulan vəzifələrin keyfiyyətli həlli üçün ilk növbədə qəbul edilən ilkin məlumatların keyfiyyətinin yaxşılaşdırılması istiqamətində DGK ilə birgə mütəmadi olaraq metodoloji işləri davam etdirir. Yerli və beynəlxalq səviyyəli seminarlarda iştirak edir və ya onlar tərəfindən göndərilən hər hansı metodoloji yeniliklərlə tanış olur və öz rəy, təklif və iradını bildirir.

## 4. Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Ticarət statistikası şöbəsinin işlər planına uyğun olaraq DGK-dan ilkin məlumatlar hesabat ayının 15-25-i aralığında alınır. Əldə olunan ilkin məlumatlar Xarici ticarət statistikası sektoru tərəfindən dərhal təhlil olunur, yoxlanılır və müvafiq göstəricilər üzrə Qiymət statistikası söbəsindən qiymət indeksləri, bir vahid üzrə dəyər, Sənaye və tikinti statistikası şöbəsindən ABƏŞ və ARDNŞ üzrə müvafiq məlumatlar da alındıqdan sonra ilk yekun nəticələr hazırlanır. İlkin məlumatların alınması ilə ilk nəticələrin (həmçinin son nəticələrin) hazır olma vaxtı arasında vaxt intervalı (laq) 10-15 gün arasında dəyişir.

*2012-2013-cü illəri əhatə edən bir neçə ay üzrə* ***V2 (hesabat dövrünün sonuncu günündən son nəticələrin nəşr gününə qədər günlərin sayı)*** *göstərici (son nəticələrin vaxtlı-vaxtında olması)*

*Cədvəl № 1*

| Hesabat dövrü | 25.12.2012 | 25.01.2013 | 25.02.2013 |
|---|---|---|---|
| Nəşr tarixi | 07.01.2013 | 05.02.2013 | 05.03.2013 |
| Aralıq vaxt (laq), təqvim günü | 13 gün | 11 gün | 8 gün |
| Aralıq vaxt (laq), iş günü | 4 gün | 7 gün | 6 gün |

*2012-2013-cü illəri əhatə edən bir neçə ay üzrə* ***V3*** *güstəricisi (nəşrin tam vaxtında yerinə yetirilməsi)*

*Cədvəl № 2*

| Hesabat dövrü | 25.12.2012 | 25.01.2013 | 25.02.2013 |
|---|---|---|---|
| Elan edilmiş nəşr tarixi | 07.01.2013 | 05.02.2013 | 05.03.2013 |
| Faktiki nəşr tarixi | 07.01.2013 | 04.02.2013 | 05.03.2013 |
| Aralıq vaxt (laq) | 0 | -1 | 0 |

## 5. Bərabər giriş və aydınlıq

Xarici iqtisadi fəaliyyət üzrə yekun məlumatlar hazırlandıqdan sonra istifadəçilərin tələbatlarının ödənilməsi məqsədi ilə bir neçə yayım vasitəsindən istifadə olunur. Belə ki, yekun məlumatların işlənib hesablanması prosesi yekunlaşdıqdan sonra aylıq dövrilikdə press-reliz, ekspress-məlumat, rüblük və illik məlumatlar əks olunmuş bülleten, illik məlumatlara əsasən tərtib olunmuş statistik məcmuə Komitənin veb-səhifəsində PDF formatında yerləşdirilir. İllik məlumatlar üzrə Komitənin veb-səhifəsində statistik məlumat bazası (http://www.azstat.org/MESearch/search?departament=9&lang=az), bundan əlavə göstəricilər və hesabat formalarına dair metaməlumatlar, həmçinin digər metodoloji izahlar da mövcuddur (http://www.stat.gov.az/menu/7/).

*Nəticələrin yayımlanması üçün istifadə olunan vasitələr*

| Sıra №-si | Vasitə | Əldə edilmə yeri |
|---|---|---|
| 1 | Dövlət Statistika Komitəsinin veb-saytı | www.stat.gov.az |
| 2 | Ekspress məlumatlar, press-relizlər | www.stat.gov.az |
| 3 | Nəşr olunan bülleten ("Azərbaycanın xarici ticarət əlaqələri") | http://www.stat.gov.az/source/trade/ |
| 4 | "Azərbaycanın xarici ticarəti" məcmuə | http://www.stat.gov.az/source/trade/ |
| 5 | Məlumat bazası | http://www.azstat.org/MESearch/search?departament=9&lang=az |
| 6 | Dövlət Statistika Komitəsinə göndərilən sorğulara cavablar | - |
| 7 | "Azərbaycan rəqəmlərdə" | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ |
| 8 | "Azərbaycanın statistik göstəriciləri" | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ |
| 9 | "Azərbaycan-faktlar və rəqəmlər" | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ |

***BA 1. Kağız məruzələr üçün abunə və sifarişlərin sayı***

Xarici ticarət əlaqələrinə dair göstəricilər kağız formasında Ticarət statistikası şöbəsi tərəfindən hazırlanan "Azərbaycanın xarici ticarət əlaqələri" adlı rüblük bülleten və "Azərbaycanın xarici ticarəti" adlı illik məcmuə vasitəsilə təqdim olunur. Bülleten və məcmuə, ümumilikdə 220 nüsxə çap olunmuşdur ki, onlardan:

- 112 nüsxəsi müxtəlif nazirliklərə və digər dövlət orqanlarına, həmçinin yerli və xarici təşkilatlara;

- 42 nüsxə Dövlət Statistika Komitəsinin müvafiq şöbələrinə paylanılmış;
- 30 nüsxə şöbədaxili xidməti işlər üçün istifadə edilir;
- 36 nüsxə ehtiyat məqsədi ilə (illik dövr olduğu üçün) saxlanılmışdır.

### *BA 2. Onlayn məlumat bazasına girişlərin sayı*

http://www.stat.gov.az/link_click_counter/-də ticarət statistikası üzrə məlumatlardan istifadəçilərin istifadə faizləri əks olunmuşdur.

### *BA 3. Metaməlumatların dolğunluq səviyyəsi*

Xarici iqtisadi fəaliyyətin (XİF) göstəricilərinə dair metaməlumatlar hər bir göstəricilər üzrə öz əksini dolğun şəkildə tapmışdır. Belə ki, göstəricilərə dair məlumat sistemində hər bir göstəricinin adı, tətbiq sahəsi və dövriliyi əks olunmuşdur. Bununla yanaşı, hər bir kod üzrə göstəricilərə dair metaməlumatlar qeyd olunmuşdur. Burada da göstəricinin kodu, adı, izahı, tətbiq sahəsi, əhatə dairəsi, mənbəyi, toplanma metodu, istifadə olunduğu təsnifat, yayım forması, əks olunduğu nəşr, dövriliyi, ölçü vahidi, beynəlxalq konsepsiyası, məlumat bazası ilə elektron əlaqəsi barədə məlumatlar öz əksini tapmışdır (http://www.stat.gov.az/menu/7/other_metadata/).

*Cədvəl № 3*

| | 01.04.2013-cü il tarixinə |
|---|---|
| Metaməlumatlarla təmin olunmuş göstəricilərin sayı, vahid | 32 |
| Metaməlumatların olması üçün təyin olunmuş göstəricilərin sayı, vahid | 32 |
| Metaməlumatların dolğunluq səviyyəsi | 100% |

## 6. Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik

Xarici ticarət statistikası göstəricilərinin işlənməsi bütün ölkələr üçün eyni olan metodologiya, malların təsviri və kodlaşdırılmasının Həmahəng Sistemi (HS), Azərbaycan Respublikasının Gömrük Tarifi, 2012 (XİF Mal Nomenklaturası), Dünya Ölkələri Təsnifatı, Beynəlxalq Standart Ticarət Təsnifatı, Ölçü vahidləri Təsnifatı tətbiq edilir. XİF Mal Nomenklaturası (MN) təsnifatın strukturunda bölmə, qruplar, mal

mövqeyi, submövqe, altsubmövqe səviyyələrindən istifadə edilir. XİF göstəricilərində (tərəfdaş ölkələrlə) müqayisəliliyin olması müxtəlif səbəblərdən irəli gələ bilər, belə ki, göstəricilərin əhatəliliyinin fərqli olması, məsələn, xarici ticarət üzrə gömrük statistikasına daxil edilən və daxil edilməyən malların siyahısının üst-üstə düşməməsi, eyni malların statistik dəyərinin müxtəlifliyi (məsələn, valyutaların müxtəlif kurslarının tətbiq edilməsi ilə əlaqədar), məxfi göstəricilərin uçotunun prinsiplərinə yanaşmanın müxtəlifliyi, ticarətin müxtəlif uçot sisteminin tətbiq edilməsi, tərəfdaş ölkənin təyin edilməsində müxtəlif meyarların tətbiq edilməsi, eyni sövdələşməyə aid edilən göstəricilərin müxtəlif zaman kəsiyində daxil edilməsi. Dövlətin xarici ticarət üzrə gömrük statistikası göstəricilərinin düzgünlüyünün artırılması və onların beynəlxalq müqayisəliliyinin təmin edilməsi məqsədilə tərəfdaş ölkələrlə göstəricilər mübadiləsi aparılır.

***UM 1. Verilmiş dinamika sıralarının uzunluğu***

Xarici ticarət statistikası məlumatlarının nəticələri dinamika sıralarında əks etdirilir. Dinamika sıralarında Azərbaycan Respublikası üzrə ticarət dövriyyəsi, idxal, ixrac, saldo və həmin göstəricilər üzrə əvvəlki illə müqayisə faizləri və ya fiziki həcm indeksi qrupu üzrə 1991-ci ildən hazırkı dövrədək illər üzrə əks etdirilir.

Dinamika sıralarında aşağıdakı dövrilik əks etdirilir:

- Aylıq göstərici;

- İllik göstərici.

***UM 2. Göstəricinin müxtəlif aspektlər üzrə uyğunluğunun təhlili***

Malların statistik dəyəri, burada göstəricilərin müqayisəliliyinin təmin edilməsi məqsədilə malların statistik dəyəri ixracda FOB qiymətləri ilə, yəni dəyərə malların ixrac olunduğu ölkənin sərhəddinə çatdırılması xidmətlərinin dəyəri daxil edilir. İdxalda SİF qiymətləri ilə, yəni dəyərə idxal olunduğu ölkənin sərhəddinə qədər çatdırılması xidmətlərinin dəyəri daxil edilməklə təyin edilir.

## 7. Çıxış keyfiyyət komponentləri arasında seçim

Şöbə Xarici ticarət statistikası məlumatlarının işlənməsi zamanı bütün keyfiyyət komponentlərinin ayrı-ayrılıqda yaxşılaşdırılması üçün mümkün imkanlardan istifadə

edir və bu sahədə müsbət nəticələrin alınması istiqamətində işlərini davam etdirir. Belə ki, aktuallıq komponenti üzrə məlumatların alınması, emalı və yayılması zamanı operativlik hər zaman gözlənilir. Dəqiqlik komponenti üzrə ilkin məlumatın alınmasına daim nəzarət edilir və mütəmadi olaraq məlumatların dürüstlüyü yoxlanılır. Vaxtlı-vaxtında olma komponenti üzrə hər ilin əvvəlində göstəricilərin yayımlanması barədə təqvim hazırlanaraq Komitənin internet səhifəsində və təqvimə uyğun olaraq göstəricilər haqqında məlumatlar Ticarət bölməsi üzrə hər ay veb-səhifədə yerləşdirilir.

## 8. İstifadəçi tələbatlarının və qavramalarının qiymətləndirilməsi

Şöbə tərəfindən Xarici ticarət statistikasına dair hazırlanan məlumatlara beynəlxalq və yerli səviyyəli istifadəçilərin tələbatı çox yüksəkdir. Belə ki, beynəlxalq qurumlardan olan BMT-nin Statistika Şöbəsi, Avropa İttifaqı Statistika Bürosu, MDB-nin Statistika Komitəsi, tərəfdaş ölkələrin statistika qurumları və bir sıra digər təşkilatlar, eləcə də müxtəlif yerli nazirliklər və digər dövlət orqanları mütəmadi olaraq keyfiyyətli və dolğun məlumatlarla təmin edilirlər və onların böyük qismi hazırlanıb göndərilən məlumatların əhatəli və dolğun olması barədə öz məmnunluqları və razılıqlarını mütəmadi olaraq bildirirlər. Bu amillər bir daha onu göstərir ki, istifadəçilərin statistik məlumatların dürüstlüyünə inamı böyükdür. Sonuncu dəfə 2010-cu ildə istifadəçilər arasında Komitənin Aparatının Məlumatların yayılması şöbəsi tərəfindən sorğu keçirilib və respondentlərin əksəriyyəti tam olaraq iqtisadi sahələrdəki statistik məlumatlara, o cümlədən xarici iqtisadi fəaliyyətin göstəricilərinə inandıqlarını bildirmişlər.

## 9. İqtisadi səmərəlilik və respondentlərə düşən yük

Məruzədə qeyd edildiyi kimi xarici ticarət üzrə gömrük statistikası formalaşdırılarkən ilkin məlumat, yük gömrük bəyannamələrində və digər gömrük sənədlərində olan məlumatlardır. Bütün sahələrdə İKT resursları, o cümlədən onlayn xidmətləri geniş yayılmaqdadır. Bunun nəticəsi olaraq statistik məlumatların vaxtında, operativ və keyfiyyətli şəkildə əldə olunması üçün məlumat bazası yaranır. Məlumatların ilkin emalı müvafiq proqram təminatı vasitəsilə həyata keçirilir. Bu da son nəticədə hesablamaların operativliyini, keyfiyyətini və dəqiqliyini artırır. Alınmış yekun məlumatlar istifadəçilərə əsasən elektron vasitələrlə çatdırılır. Gələcəkdə bu işlərin daha da keyfiyyətli və səmərəli olması üçün proqram təminatının təkmilləşdirilməsi istiqamətdə zəruri işlər görülür.

## 10. Məxfilik, şəffaflıq və təhlükəsizlik

Rəsmi statistikanın aparılması üçün yığılan, işlənən və məlumat bazasına daxil edilən hüquqi və fiziki şəxslərin ilkin statistik məlumatları konfidensial sayılır və statistik sirdir. Dövlət orqanları, müəssisələr, təşkilatlar və vətəndaşlar tərəfindən ölkənin gömrük orqanlarına təqdim edilən xarici ticarət üzrə məlumat ancaq gömrük məqsədləri üçün istifadə oluna bilər. Gömrük yük bəyannaməsinin xarici iqtisadi əlaqələrin konkret iştirakçıları ilə bağlı məlumatı məxfi sayılır. Məxfilik rejiminin tətbiq edilməsi ilə əlaqədar dövlətin xarici ticarəti haqqında statistik göstəricilərdə xətaların yaranmaması məqsədilə, eləcə də gömrük statistikasının əhatəliliyinin tamlığının saxlanılması üçün, xarici ticarətin gömrük statistikasında məxfi məlumatın nəşr olunan ümumi məlumat massivindən seçilməməsinə imkan verən xüsusi texniki fəndlərdən istifadə olunur. Xarici ticarət sektoru ilkin məlumatların məxfiliyinin qorunmasını daim izləyir və bu sahədə lazımi tədbirlər görür.

## 11. Yekun

Xarici ticarət üzrə gömrük statistikası göstəricilərinin keyfiyyətinin artırılması və onların beynəlxalq müqayisəliliyinin təmin edilməsi məqsədilə tərəfdaş ölkələrlə müntəzəm olaraq göstəricilər mübadiləsi aparılır, məlumatların daha obyektiv, əhatəli və keyfiyyətli işlənməsi üçün elektron vasitələrdə proqram təminatının daha da təkmilləşdirilməsi və keyfiyyətin yüksəldilməsi istiqamətində işlərin davam etdirilməsi məqsədəuyğun hesab edilir.

Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə: rafael@azstat.org, +994 12 538 76 95